

«Əhalinin sağlamlığının qorunması haqqında» Qanunun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin Fərmanında dəyişiklik edildi

2



Prezident İlham Əliyev ÜST Avropa regional direktorunu qəbul edib

2



Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadılıb

3


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 19-20 (779) 31 oktyabr 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev Sumqayıtda yeni xəstəxana binasının açılışını edib



2

## Səhiyyə Nazirliyində ÜST-nin Avropa üzrə regional direktoru ilə görüş keçirilib



5

## Bakıda Tibb Təhsili üzrə 8-ci Beynəlxalq Konfrans keçirildi




7

## Özbəkistan – Azərbaycan səhiyyə dekadası



6

## Azərbaycan səhiyyə naziri İstanbulda IX Türk Tibb Dünyası Qurultayında iştirak edib

*Teymur Musayev Əziz Sancar mükafatı ilə təltif olunub*




8

### *Aforizm*

*Ağıl nə isə alanda zənginləşir, ürək nə isə verəndə.*

*Viktor Hüqo*

# Prezident İlham Əliyev ÜST Avropa regional direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klügeni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Hans Klüge ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesusun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Tedros Gebreyesusa çatdırmağı xahiş edib.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd edib. O, qurumun sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş «COVID-19-a qarşı birlikdəyik» mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirib. H.Klüge Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd edib, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini deyib.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb.

Hans Henri Klüge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-nin Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini vurğulayıb.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-nin ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirib, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışıb.

Dövlət başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirib ki, işğaldan azad edilmiş ərazilərdə yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğulayıb ki, «Laçın» dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara yardım edildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırıb.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələrinin yerlərdə çalışdıqlarını, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirib, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını deyib.

Dövlət başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini söyləyib. Prezident İlham Əliyev vurğulayıb ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırılıb, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olunub.

# Prezident İlham Əliyev Sumqayıtda yeni xəstəxana binasının açılışını edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda 2 saylı Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlət başçısına tibb müəssisəsində yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, 150 çarpayılıq xəstəxananın tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb. Səhiyyə ocağı poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.

Tibb müəssisəsi müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal teleskopik rentgen cihazı, rəqəmsal DR rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün PHACO AMO cihazı və iki ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.

Xəstəxananın həyəti abadlaşdırılıb, yaşıllıq sahələri salınıb.

Ümumiyyətlə, Prezident İlham Əliyevin tapşırığı ilə son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar, həyata keçirilən layihələr sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və əhatə dairəsi yüksəlib. Görülən işlər əhalinin sağlamlığının qorunmasına, onların hərtərəfli tibbi xidmətlərlə əhatə olunmasına imkan verir ki, bu da vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.

# «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 498; 2007, № 11, maddə 1114; 2009, № 12, maddə 977; 2011, № 2, maddə 84; 2014, № 3, maddə 242; 2017, № 6, maddə 1116, № 7, maddə 1317; 2020, № 6, maddə 690, № 7, maddə 881, № 12 (I kitab), maddə 1501; 2021, № 6 (I kitab), maddə 567, № 11, maddə 1219; 2023, № 7, maddə 949) 2-ci hissəsinin beşinci abzasında «34-cü maddəsinin ikinci» sözləri «34-cü maddəsinin üçüncü» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci bənd aşağıdakı redaksiyada verilsin:

«5. Nazirliyin saxlanması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, büdcədənkənar vəsait və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.».

**2.** Aşağıdakı məzmunda 7.1-1-ci və 8.1-2-ci yarımbəndlər əlavə edilsin:

«7.1-1. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirir, tibbi xidmətlərin keyfiyyətinə nəzarəti təmin edir;»;

«8.1-2. «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və tabeliyində olan tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin Qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini təsdiq etmək;».

**3.** 8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

«8.3. səhiyyə sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında iştirak etmək və fəaliyyət istiqamətlərinə uyğun olaraq, həmin sənədlərlə bağlı aidiyyəti üzrə tədbirlərin həyata keçirilməsini təmin etmək;».

**4.** Aşağıdakı məzmunda 8.4-1 - 8.4-4-cü yarımbəndlər əlavə edilsin:

«8.4-1. təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi qaydasını və ixtisaslaşdırılmış tibbi yardımın növlərini, həcmini, keyfiyyət standartlarını və göstərilməsi qaydasını təsdiq etmək;

8.4-2. səhiyyə sistemi infrastrukturunun təşkili ilə bağlı planlaşdırmanı və proqnozlaşdırmanı aidiyyəti qurumlarla birlikdə həyata keçirmək;

8.4-3. tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və səhiyyənin təşkili üçün mütərəqqi forma və metodların tətbiqi məqsədilə araşdırmalar aparmaq və sınaqlar keçirmək, səhiyyə sahəsində müxtəlif maliyyələşmə modellərinin effektivliyinin təhlilini həyata keçirmək;

8.4-4. müvafiq sahədə əhalinin maarifləndirilməsi ilə bağlı tədbirlər görmək və bu tədbirlərin icrasının effektivliyinə nəzarəti təmin etmək;».

**5.** 8.11-ci yarımbənddə «tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin» sözləri «tədbirləri hazırlamaq və həyata keçirilməsinə nəzarət» sözləri ilə əvəz edilsin.

**6.** 8.13-cü yarımbəndə birinci halda «tibb» sözündən əvvəl «tibb müəssisələrini tibb təhsilli kadrlarla təmin etmək məqsədilə» sözləri əlavə edilsin və həmin yarımbənddən «, qurumlarını ixtisaslı kadrlarla təmin etmək» sözləri çıxarılsın.

**7.** 8.13-2-ci yarımbənddə «qanunvericiliyə uyğun olaraq həkimlərin və əczaçıların» sözləri «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq, həkimlərin, əczaçıların və orta tibb və ya əczaçılıq təhsili olan şəxslərin (işçilərin)» sözləri ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 8.13-4-cü və 8.13-5-ci yarımbəndlər əlavə edilsin:

«8.13-4. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə digər qaydalar nəzərdə tutulmadıqda, xarici ölkələrdə tibb və ya əczaçılıq təhsili almış şəxsləri, xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması qaydasına uyğun olaraq, ölkə ərazisində tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxmaq;

8.13-5. ali və orta ixtisas tibb təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə qəbul barədə təkliflər vermək;».

**9.** 8.15-ci yarımbəndə «görmək» sözündən sonra «, o cümlədən tabeliyində olan tibb müəssisələrinin dayanıqlı inkişafı üçün təhlillər aparmaq və təkliflər hazırlamaq» sözləri əlavə edilsin.

**10.** Aşağıdakı məzmunda 8.15-1-ci yarımbənd əlavə edilsin:

«8.15-1. səhiyyə sistemində idarəetmənin təkmilləşdirilməsi, islahatlar aparılması, tibb müəssisələrinin maliyyələşməsi və xərclərinin idarə edilməsi məqsədilə mütərəqqi və effektiv beynəlxalq təcrübənin tətbiqi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;».

**11.** 8.18-ci yarımbəndə «qurumlarında» sözündən əvvəl «Nazirliyin Aparatında,» sözləri əlavə edilsin.

**12.** Aşağıdakı məzmunda 8.27-1-ci, 8.27-2-ci və 9.1-1-ci yarımbəndlər əlavə edilsin:

«8.27-1. səhiyyə sahəsində rəqəmsallaşdırmanı aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə tətbiq etmək;

8.27-2. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrini aparmaq;»;

«9.1-1. tibbi sığorta ilə bağlı təkliflər vermək;».

**13.** 9.5-ci yarımbənddə «dövlət məhkəmə ekspertizası fəaliyyətini» sözləri «məhkəmə-tibbi ekspertizasını» sözləri ilə əvəz edilsin.

**14.** 9.6-cı yarımbənddən «, müvafiq sahədə təşviqat və maarifləndirmə işlərini həyata keçirmək» sözləri çıxarılsın.

**15.** 13-cü bəndin birinci abzasında «birinci müavini və dörd» sözləri «üç» sözü ilə əvəz edilsin.

**16.** Aşağıdakı məzmunda 14.1-1-ci və 14.1-2-ci yarımbəndlər əlavə edilsin:

«14.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

14.1-2. Nazirliyin Aparatının struktur bölmələrinin əsasnamələrinin, tabeliyindəki qurumların (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 17-1-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;».

**17.** 14.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

«14.2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin tabeliyindəki qurumların nizamnamələrini təsdiq olunmaq üçün təqdim edir;».

**18.** Aşağıdakı məzmunda 14.3-2-ci, 14.3-3-cü yarımbəndlər və 17-1-ci bənd əlavə edilsin:

«14.3-2. Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

14.3-3. Elmi-Tibbi Şuranın, Farmakoloji və Farmakopeya Ekspert Şurasının və Apellyasiya Şurasının sədrlərini, Şura sədrlərinin təqdimatı (təklifi) əsasında onların digər üzvlərini, o cümlədən Apellyasiya Şurası Katibliyinin rəhbərini və tərkibini təsdiq edir;»;

«17-1. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

17-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

17-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

17-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

17-1.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları (qurumları) ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

17-1.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.1-2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

17-1.6. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.».

**19.** 19-cu bənd ləğv edilsin.

**20.** 22-ci bəndin birinci cümləsində üçüncü halda «və» sözü vergül işarəsi ilə əvəz edilsin, həmin cümləyə «Şurası» sözündən sonra «və sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun tabeliyindəki qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalar istisna olmaqla) təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxmaq məqsədilə Nazirlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 27 oktyabr 2023-cü il*

# K.K.Musayevin «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində xidmətlərinə görə Kamran Kazım oğlu Musayev «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 oktyabr 2023-cü il*

# Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtı uzadılıb

**Nazirlər Kabineti COVID-19-la mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin vaxtını uzadıb.**

Bununla bağlı Baş nazir Əli Əsədovun imzaladığı Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə qərara dəyişiklik edilib.

Dəyişikliyə görə, həmin qrup tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti 2024-cü il yanvarın 2-dək uzadılıb.

Nazirlər Kabinetinin digər Qərarına əsasən, Bakıda koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin də əməkhaqqına əlavənin müddəti artırılıb.

Baş nazir Əli Əsədovun bununla bağlı imzaladığı Qərarla «Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Qərarda dəyişiklik edilib.

Yeni Qərara əsasən, həmin qrup tibb işçilərinin əməkhaqlarına əlavənin ödənilməsi müddəti 2024-cü il yanvarın 2-dək uzadılıb.

Qeyd edək ki, hər iki halda bu müddət oktyabrın 2-də başa çatmışdı.

# Azərbaycan səhiyyə naziri ÜST Avropa Regional Komitəsinin 73-cü sessiyasında iştirak edib

**Astanada (Qazaxıstan) Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 73-cü sessiyası keçirilib. Qeyd edək ki, regionda ictimai sağlamlıq məsələləri üzrə bu əsas toplantı əhalinin sağlamlıq və rifah vəziyyətini yaxşılaşdırmaq məqsədi daşıyan strategiyaların müzakirəsi və təsdiqlənməsi məqsədilə hər il səhiyyə nazirlərini bir araya gətirir. ÜST-nin Avropa regional bürosunun ali idarəetmə və qərarverici orqanı olan Regional Komitənin budəfəki sessiyasında qurumun Avropa regionuna aid olan 53 üzv dövlətinin səhiyyə nazirləri, digər yüksək vəzifəli rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.**





Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan sessiyada səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Tədbirdə Regional Komitəyə üzv dövlətlərdə insanların sağlamlığının qorunması, sanitar-gigiyenik şəraitinin yaxşılaşdırılması ilə bağlı fəaliyyət istiqamətləri və səhiyyə sahəsində bütün Avropa regionu qarşısında duran əsas problemlər müzakirə edilib.

Sessiyanın açılışında **ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus** və **ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge** çıxış ediblər. Bildirilib ki, 2023-cü ildə ÜST-nin yaradılmasının 75 illiyi və İlkin Səhiyyə Xidməti (İSQ) üzrə Alma-Ata Bəyannaməsinin imzalanmasının 45 illiyi qeyd olunur. Odur ki, bu sessiya Avropa Regionunda sağlamlığın və rifahın təmin olunmasında irəliləyişləri müzakirə etmək, son 75 il ərzində ictimai səhiyyə sahəsində mühüm nailiyyətləri qeyd etmək, gələcək problemlərin həlli ilə bağlı təcrübə mübadiləsi aparmaq üçün əla fürsət yaradıb.

Tədbirdə çıxış edən **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** bildirib ki, sağlamlığın təşviqi milli səviyyədə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemləri qurmaq üçün mühüm əhəmiyyət kəsb edir: «Qlobal miqyasda gözlənilən ömür uzunluğu artdığına görə, biz bütün vətəndaşların sağlamlığının qorunmasına xüsusi diqqət yetirməliyik. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası»nın hədəflərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir».

Teymur Musayev vurğulayıb ki, fövqəladə hallara daha yaxşı hazırlıq və onların nəticələrinin vaxtında aradan qaldırılması davamlı qlobal səhiyyə infrastrukturunun olmasını tələb edir: «Qlobal sağlamlıq üçün riskləri azaltmaq və şokadavamlı sağlamlıq sistemlərinə nail olmaq üçün həm beynəlxalq, həm də milli səviyyədə adekvat tədbirlər həyata keçirilməlidir».

Nazir qeyd edib ki, davamlı inkişaf sülh və təhlükəsizlik olmadan həyata keçirilə bilməz. «2020-ci ildə 44-günlük Vətən müharibəsi və ötən ay həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan bütün ölkə üzərində öz suverenliyini bərpa edib. İndi biz işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin öz torpaqlarına qayıtması istiqamətində böyük işlər görürük. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə səhiyyə xidmətlərinin göstərilməsi artıq təşkil olunub. Lakin əvvəllər işğal olunmuş torpaqların mina və partlayıcı maddələrlə həddsiz dərəcədə çirklənməsi böyük qayıdış prosesinə ciddi əngəl törədir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra mina partlayışları nəticəsində əksəriyyəti mülki şəxslər olmaqla 300-dən çox vətəndaş həlak olub və ya ağır yaralanıb. Bu, bizim səhiyyəmiz üçün də ciddi problemdir», - deyə nazir bildirib.

Plenar iclasdan sonra tədbir panel sessiyalarda müxtəlif mövzular ətrafında müzakirələrlə davam edib.

ÜST Avropa Regional Komitəsinin 73-cü sessiyasında Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Fransa və Ermənistan nümayəndələrinin ölkəmizin ünvanına səsləndirdikləri əsassız ittihamlara cavab verib.

Teymur Musayev qeyd edib ki, Azərbaycan Respublikasının suverenliyinin və konstitusiya quruluşunun bərpa olunması, ərazilərin qanunsuz erməni hərbi birləşmələrindən təmizlənməsi məqsədilə antiterror mahiyyətli tədbirlər həyata keçirilib. Müxtəlif beynəlxalq təşkilatların nümayəndələrinin Qarabağ regionuna bir sıra səfərləri olub. Bu səfərlərin nəticəsində hazırlanan hesabatlarda qeyd edilib ki, hər hansı bir mülki infrastruktura, o cümlədən məktəb və xəstəxanalara heç bir ziyan dəyməyib. Yerli əhali də onlara qarşı hər hansı bir zorakılıq, həmçinin mülki və kənd təsərrüfatı obyektlərinin dağıntısı faktlarının olmadığını missiyalara bildirib.

Eyni zamanda, vurğulanıb ki, UNHCR və Qırmızı Xaç Komitəsinin Ermənistan ofisinin də hesabatlarında bu məsələ öz əksini tapıb. Həmçinin Ermənistan baş nazirinin 21 və 23 sentyabrda səsləndirdiyi bəyanatlarında mülki əhali üçün hər hansı bir təhlükə olmadığı bildirilib. Bütün bu faktlar bir daha sübut edir ki, Fransa və Ermənistan nümayəndələrinin səsləndirdikləri ittihamlar əsassızdır.

## Azərbaycan ÜST Regional Qiymətləndirmə Qrupuna üzv seçilib

**ÜST Avropa Regional Komitəsinin 73-cü sessiyası çərçivəsində ÜST-nin Regional Qiymətləndirmə Qrupuna üzvlər seçilib.**

Keçirilən seçki nəticəsində Azərbaycan ÜST-nin Regional Qiymətləndirmə Qrupuna üzv seçilib.

Ölkəmizin Regional Qiymətləndirmə Qrupuna üzv seçilməsi Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu bir qurumla sıx və səmərəli əməkdaşlığının uğurlu nəticəsidir. Regional Qiymətləndirmə Qrupunda üzvlük Azərbaycanın bu təşkilatda qərarverici mövqeyini daha da möhkəmləndirir və gələcək fəaliyyət imkanlarını genişləndirir.

Regional Qiymətləndirmə Qrupu ÜST-nin fəaliyyətinin qiymətləndirməsi ilə bağlı töhfələrini verir. Qrup qiymətləndirmə fəaliyyətinin yaxşılaşdırılması, nəticələrə görə məsuliyyətin artırılması və təşkilatın araşdırma işinin təşviqi sahəsində ÜST-də mühüm rol oynayır. Belə ki, bu qrup qiymətləndirmə resurslarının istifadəsi zamanı əldə edilən nəticələrə görə hesabatlılığı təmin etmək və təcrübələrin öyrənilməsini asanlaşdırmaq məqsədini də daşıyır. Bundan əlavə, Regional Qiymətləndirmə Qrupunun fəaliyyəti qərarların qəbuluna da təsir göstərir.

Qeyd edək ki, ÜST-nin Avropa Regional Komitəsinə regional direktor vəzifəsinə namizədlərin qiymətləndirilməsi, meyarların müəyyən edilməsi və qısa siyahıya salınması da bu Qrup tərəfindən həyata keçirilir.

## Azərbaycan dövləti İrpendə poliklinikanın təmirini öz üzərinə götürüb

**Azərbaycan hökumətinin yardımı ilə SOCAR şirkəti Ukraynanın İrpen şəhərində poliklinikanı təmir edəcək. Azərbaycanlı tərəfdaşlar təmirə 60 milyon qrivna ayırırlar.**

Bu barədə AZƏRTAC-a İrpen şəhərinin meri Oleksandr Markuşin məlumat verib.

Mer Oleksandr Markuşin çıxışında Azərbaycanı Ukrayna üçün dost, qardaş ölkə kimi qiymətləndirib. «Biz müharibə zamanı Azərbaycanın daimi diqqətini görmüşük. Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə SOCAR-ın Ukraynadakı nümayəndəliyi Akademik Zərifə Əliyeva adına 12 saylı orta məktəbi tez bir zamanda əsaslı təmir etdi. Azərbaycan dövlətinin İrpenin bərpasına dəstəyi davam edəcək. Mən müharibə zamanı İrpenə göstərdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm», — deyə mer əlavə edib.



# ÜST rəhbəri: «ÜST Azərbaycan səhiyyəsində aparılan islahatları müsbət qarşılayır»

**Azərbaycanın səhiyyə naziri Teymur Musayevlə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus arasında görüş keçirilib. Görüş Astanada ÜST-nin Avropa Regional Komitəsinin 73-cü sessiyası çərçivəsində baş tutub.**



Nazirliyin mətbuat xidmətinin yaydığı məlumata görə, görüşdə **Teymur Musayev** ölkəmizdə Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlığa böyük önəm verildiyini diqqətə çatdırıb və ötən müddət ərzində təşkilatın Azərbaycana göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirib.

«Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə səhiyyəsində həyata keçirilən köklü islahatlar nəticəsində bu sahənin yeni müasir konsepsiyalara uyğun modernləşdirilməsi, rəqəmsallaşdırma, uğurlu beynəlxalq təcrübədən istifadə, ilkin səhiyyənin və tibb təhsilinin inkişafı, uşaqların peyvəndlənməsi istiqamətlərində bir çox mühüm işlər həyata keçirilib, yeni qanunvericilik sənədləri hazırlanıb», – deyə nazir vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərdə səhiyyə sisteminin yenidən qurulmasına başlandığını deyən Teymur Musayev bildirib: «Qarabağda yaşayan əhalinin müayinə və müalicəsi artıq dövlətimiz tərəfindən qarşılanır. Ötən ay həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində mülki əhaliyə zərər dəyməyib, yalnız legitim hərbi infrastruktur hədəfə alınıb».

Həmçinin nazir BMT-nin nümayəndələrinin Azərbaycanın Qarabağ regionuna səfəri çərçivəsində mövcud vəziyyətin müsbət qarşılandığını qeyd edib: «Həmin bölgədə yaşayan əhali dərhal qida və dərman preparatları ilə təmin edilib. Xankəndidə yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən yanğının söndürülməsi və zərərçəkmiş şəxslərə təcili tibbi yardımın göstərilməsi təşkil edilib».

Teymur Musayev bildirib ki, Azərbaycan dünyada ən çox mina ilə çirklənmiş ölkələr sırasındadır: «Azərbaycanın Ermənistan tərəfindən minalanmış ərazilərində mülki şəxslər bu gün də həyatlarını və sağlamlıqlarını itirirlər. Dövlətimiz minalardan təmizlənmə üzrə bir çox addımlar atır, buna baxmayaraq, Ermənistanın 30 il ərzində yerləşdirdiyi minaları təmizləmək uzun bir prosesdir».

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus** Azərbaycan Prezidenti İlham Əliyevin ÜST ilə əməkdaşlığa verdiyi önəmi yüksək qiymətləndirib.

Həmçinin bu yaxınlarda təşkilatın Avropa üzrə regional direktoru Hans Henri Klügenin Azərbaycana səfərinin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə minnətdarlığını bildirib. Eyni zamanda, Azərbaycanın Qarabağ regionu haqqında ətraflı məlumata və bu bölgədə yaşayan insanların sağlamlığının qorunması sahəsində görülən işlərə görə təşəkkürünü çatdırıb.

Tedros Gebreyesus Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyini, pandemiya dövründə ölkəmizin təşkilata etdiyi humanitar yardımları, eyni zamanda, xəstəliyin aradan qaldırılması məqsədilə ölkələri birgə əməkdaşlığa səsləyən qlobal çağırışları xüsusilə yüksək qiymətləndirib. O, ÜST-nin Azərbaycan səhiyyəsində aparılan islahatları müsbət qarşıladığını və dəstəklədiyini vurğulayıb.

Sonda tərəflər arasında təşkilatın səhiyyə böhranlarına hazırlıq və cavab tədbirlərinin gücləndirilməsi, akademik fəaliyyətin genişləndirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Səhiyyə Nazirliyində ÜST-nin Avropa üzrə regional direktoru ilə görüş keçirilib

**Səhiyyə Nazirliyində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdə səfərdə olan Avropa üzrə regional direktoru Hans Henri Klügenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Ümumdünya Səhiyyə Təşkilatının Avropa İttifaqında nümayəndəsi Oksana Domenti, ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmançı, ÜST-nin kommunikasiya məsələləri üzrə mütəxəssisi Roy Vaidaya iştirak ediblər.**




Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, toplantıda **səhiyyə naziri Teymur Musayev** ölkəmizin ÜST ilə qarşılıqlı əməkdaşlığa önəm verdiyini qeyd edib. Azərbaycanın bu nüfuzlu səhiyyə təşkilatı ilə sıx əməkdaşlığının ildən-ilə yüksələn xətlə inkişaf etdiyini deyən nazir bildirib ki, ötən dövrdə qarşılıqlı əməkdaşlıq şəraitində mühüm işlər görülüb, ölkə, regional və qlobal səviyyələrdə uğurlu layihələr həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yerli əhalinin tibbi ehtiyaclarının qarşılanması üçün ölkə başçısının tapşırığı ilə tədbirlər həyata keçirilir, bu məsələnin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı işlər görülür. Teymur Musayev qeyd edib ki, bu məqsədlə Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən Müvəqqəti İdarəetmə Mərkəzi tərəfindən Xankəndi şəhərində artıq müvafiq tibbi xidmətlərin təşkilinə başlanılıb: «Azərbaycan Respublikasının səhiyyə qurumlarının məsul şəxslərinin iştirakı ilə ixtisaslaşdırılmış tibbi heyət, o cümlədən müxtəlif tibb mütəxəssisləri, ambulans avtomobilləri və təcili tibbi yardım briqadası Xankəndiyə ezam olunub».

Nazir həmçinin bildirib ki, Xankəndidə yerli əhalinin cari tibbi ehtiyacları və sanitar-epidemioloji vəziyyət qiymətləndiriləndən sonra müvafiq işlərin həyata keçirilməsi nəzərdə tutulur.

**ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge** səmimi qəbula görə səhiyyə nazirinə öz təşəkkürünü bildirib, təmsil etdiyi təşkilatın ölkəmizlə 30 ildən artıq uğurlu əməkdaşlığını vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti ilə görüşdüyünü xatırladan regional direktor görüşdə Prezident İlham Əliyevin COVID-19-a qarşı mübarizədə ÜST-nin ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsi, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin yaradılması və vaksin həmrəyliyi ilə bağlı səylər ətrafında fikir mübadiləsinin aparıldığını vurğulayıb.

O, təmsil etdiyi təşkilatın Qarabağ bölgəsində yaşayan yerli əhaliyə psixoloji reabilitasiya ilə bağlı yardımların və digər zəruri tibbi xidmətlərin göstərilməsinə hazır olduğunu bildirib.

Sonda qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan səhiyyə naziri Astanada ikitərəfli görüşlər keçirib

**Azərbaycanın səhiyyə naziri Teymur Musayev Astanada Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 73-cü sessiyası çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib. O cümlədən nazir ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge, Qazaxıstanın səhiyyə naziri xanım Ajar Giniyat və UNAIDS-nin Asiya-Sakit Okean, Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Dəstək Qruplarının direktoru İmonn Merfi ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən məlumat verilir ki, səmimi mühitdə keçən görüşlərdə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı və onun Avropa Regional Komitəsi ilə qarşılıqlı fəaliyyətinin yüksək səviyyədə olduğu bildirilib. Azərbaycan Respublikası Prezidentinin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyi vurğulanıb. Həmçinin qeyd olunub ki, COVID-19 pandemiyası zamanı Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı çərçivəsində xüsusi sessiyanın çağırılması ÜST və onun Avropa Regional Komitəsi tərəfindən yüksək qiymətləndirilir.

Görüşlər zamanı eləcə də bildirilib ki, səhiyyənin rəqəmsallaşdırılması, insan kapitalı və infrastruktur sahələrində ölkəmiz ÜST ilə daha sıx əməkdaşlıqda maraqlıdır. COVID-19 infeksiyası ilə mübarizədə Azərbaycanın beynəlxalq müstəvidə göstərdiyi yardımlar və irəli sürdüyü təşəbbüslər də qeyd edilib.

Görüşlərdə səhiyyə və tibb elmi sahəsində ölkələr arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf imkanları, əczaçılıq sahəsində ikitərəfli əlaqələrin perspektivləri müzakirə olunub. Səhiyyədə idarəçiliyin müasir konsepsiyalara uyğun formalaşdırılması, yerli və xarici tərəfdaşlarla əməkdaşlıqda Ümumdünya Səhiyyə Təşkilatının və onun Avropa Regional Komitəsinin dəstəyi yüksək qiymətləndirilib.

ÜST-yə üzv ölkələr və beynəlxalq təşkilatlarla səhiyyə sisteminin müasir çağırışlar əsasında qurulması, mütərəqqi idarəetmə prinsipləri, texnoloji nailiyyətlərin tətbiqi, tibb təhsilinin inkişafı, xəstəliklərin diaqnostikası, QİÇS-lə mübarizədə təcrübə mübadiləsi, habelə əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi də vurğulanıb. Qeyd edilib ki, ÜST-nin Avropa Regional Komitəsi ilə qarşılıqlı əməkdaşlıq region ölkələrində əhalinin sağlamlığının qorunmasına, gələcəkdə baş verə biləcək pandemiyalara hazırlıq və digər bu kimi sahələrdə tədbirlərin həyata keçirilməsinə və mövcud potensialların səfərbər olmasına geniş imkanlar yaradıb.

# Özbəkistan — Azərbaycan səhiyyə dekadası

**Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan və Özbəkistan səhiyyə nazirliklərinin təşkilatçılığı ilə Daşkənddə və Özbəkistanın digər şəhərlərində Ümummilli Lider Heydər Əliyevin 100-illik yubileyinə həsr edilmiş Özbəkistan — Azərbaycan səhiyyə dekadası keçirilib.**

## Azərbaycan cərrahları Özbəkistanda əməliyyatlar ediblər

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, dekada çərçivəsində Özbəkistanın ixtisaslaşmış tibb mərkəzləri və aparıcı regional tibb müəssisələrində yüksək texnologiyalı əməliyyatlar, təlimlər, minimal invaziv cərrahiyyə, oftalmologiya, onkologiya, ginekologiya və digər istiqamətlər üzrə birgə konsultasiyalar təşkil edilib.

Görüşlər zamanı səhiyyə sisteminin rəqəmsallaşdırılması, əczaçılıq, xalq təbabəti, tibb təhsili və təbabət elmi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Azərbaycan Səhiyyə Nazirliyinin tabeliyindəki və digər səhiyyə müəssisələrinin 14 nəfər yüksəkixtisaslı həkimləri özbəkistanlı həmkarları ilə birlikdə əhaliyə müasir tibbi avadanlıqlar vasitəsilə, yüksək peşəkarlıqla müxtəlif cərrahiyyə əməliyyatları icra ediblər, müayinələr aparıb, müalicələr təyin ediblər.

Cərrahiyyə əməliyyatları paytaxt Daşkəndlə yanaşı, Özbəkistanın Səmərqənd, Xarəzm, Buxara, Nəvai və digər bölgələrində aparılıb.

Tibbi prosedurlar neonatal minimal invaziv cərrahiyyə, uşaq cərrahiyyəsi, transplantologiya, minimal invaziv laparoskopik və histeroskopik cərrahiyyə, travmatologiya və ortopediya, onkologiya və oftalmologiya, ağır rekonstruktiv əməliyyatlar kimi sahələri əhatə edib.

Daşkənd, Səmərqənd, Cizak və Sırdərya vilayətlərində uşaq cərrahiyyəsi, transplantologiya əməliyyatları, Sırdərya və Buxara vilayətlərində oftalmologiya və gözün mikrocərrahiyyəsi prosedurları icra olunub. Səmərqənd, Buxara və Nəvai vilayətlərində travmatologiya və ortopediya, Namangəh və Xarəzm vilayətlərində isə onkologiya, oftalmologiya üzrə əməliyyatlar həyata keçirilib. Eyni zamanda, bud-çanaq total endoprotez, diz oynağının total artroplastikası, böyrək transplantasiyası, skolioz deformasiyası və digər mürəkkəb əməliyyatlar da müsbət nəticələrlə tamamlanıb.

İcra olunan birgə cərrahiyyə əməliyyatları Özbəkistanın müxtəlif aparıcı media resurslarında geniş şəkildə işıqlandırılıb.

Ümumilikdə, Özbəkistan — Azərbaycan səhiyyə dekadası çərçivəsində 100-dən artıq birgə cərrahiyyə əməliyyatları icra olunub.

Bu layihə iki qardaş ölkənin səhiyyə sahəsindəki əlaqələrini yeni müstəviyə keçirir. Birgə cərrahi əməliyyatlar səhiyyə sahəsində uğurlu bir tarixin başlanğıcıdır. Birgə fəaliyyət iki ölkənin praktiki tibbi təcrübə mübadiləsinin keyfiyyətcə yeni istiqamətdə inkişafına şərait yaradır. Həmçinin vahid məkanda birgə əməliyyatların real vaxt rejimində aparılması tibbi peşəkarlığın artırılmasına xidmət edir.

## Səhiyyə nazirinin görüşləri

Özbəkistan — Azərbaycan səhiyyə dekadası çərçivəsində Azərbaycan səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti qardaş ölkəyə səfər edib.

Nümayəndə heyəti Daşkənddə yaradılmış Heydər Əliyev Meydanını və burada ucaldılmış böyük memorial kompleksi ziyarət edib, Ulu Öndərin abidəsi önünə tər gül dəstələri qoyub, xalqımızın Ümummilli Liderinin əziz xatirəsini ehtiramla yad edib.

Sonra nümayəndə heyəti Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyində olub.

Səhiyyə dekadası çərçivəsində Özbəkistanın səhiyyə naziri Amrillo İnoyatovun Azərbaycanın səhiyyə naziri Teymur Musayevlə ikitərəfli görüşü də keçirilib.

Səmimi mühitdə keçən görüşdə qardaş ölkələr arasında ikitərəfli münasibətlər və əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanıb. Bildirilib ki, hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri dövlətlərarası dostluğun bariz nümunəsidir.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşan səhiyyə dekadası çərçivəsində keçirilən tədbirlər ikitərəfli əməkdaşlığın dərinləşməsi, səhiyyə sahəsində təcrübə mübadiləsinin gücləndirilməsi, dövlət-özəl tərəfdaşlığının stimullaşdırılması, bu sahəyə əlavə investisiyaların cəlb edilməsi üçün geniş imkanlar yaradır. Dekada çərçivəsində Azərbaycanın Səhiyyə Nazirliyinin həkim mütəxəssislərinin özbəkistanlı həmkarları ilə birgə keçirdikləri cərrahi əməliyyatlar, müayinə və müalicə prosedurları yüksək qiymətləndirilib. Vurğulanıb ki, bu tədbir qarşılıqlı əməkdaşlığı yeni müstəviyə keçirməklə, hər iki ölkənin həkimlərinin praktiki biliklərinin artırılması və əhalinin sağlamlığının qorunmasında yeni imkanlar açır.

Görüş zamanı qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi də aparılıb.

Azərbaycanın səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti səhiyyə dekadası çərçivəsində Akademik V.Vahidov adına Respublika İxtisaslaşdırılmış Elmi-Praktiki Cərrahiyyə Mərkəzində olub. Burada Teymur Musayev səhiyyə dekadası çərçivəsində əməliyyat olunan vətəndaşlar və Azərbaycandan gələn həkimlərlə görüşüb.

Nümayəndə heyəti Respublika İxtisaslaşmış Göz Mikrocərrahiyyə Mərkəzi, Milli Uşaq Tibb Mərkəzi, Elmi-Praktik Travmatologiya və Ortopediya Mərkəzi və M-klinika ilə də tanış olub.

## Daşkənddə Özbəkistan – Azərbaycan səhiyyə forumu

Daşkənddə Özbəkistan — Azərbaycan səhiyyə dekadası çərçivəsində Özbəkistan — Azərbaycan səhiyyə forumu da keçirilib.

Hər iki ölkənin səhiyyə nazirliklərinin, Özbəkistanın aidiyyəti dövlət qurumlarının, tibb təhsil ocaqlarının nümayəndələrinin, Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfirinin, alim və həkimlərin iştirak etdikləri forum səhiyyə və tibb elmi sahəsində iki ölkədə əldə olunan nailiyyətlər, tətbiq edilən innovasiyalar, səhiyyənin rəqəmsallaşdırılması, əhalinin sağlamlığının qorunması sahəsində görülən işləri müzakirə etmək və iki ölkənin həkim mütəxəssisləri arasında təcrübə mübadiləsi aparmaq məqsədi daşıyıb.



Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotosərgi və kitab kolleksiyası ilə tanış olublar.

Tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti barədə film nümayiş etdirilib.

Forumun açılışında çıxış edən **Özbəkistanın səhiyyə naziri Amrillo İnoyatov** səhiyyə sahəsində əməkdaşlıq çərçivəsində iki ölkə arasında sıx tərəfdaşlığın olduğunu vurğulayıb. Nazir ölkələrimiz arasında münasibətlərin uğurlu davamı kimi keçirilən Özbəkistan — Azərbaycan səhiyyə dekadası çərçivəsində Azərbaycan Səhiyyə Nazirliyinin həkim mütəxəssislərinin özbəkistanlı həmkarları ilə birgə yüksək texnoloji avadanlıqlar vasitəsilə 100-dən artıq cərrahiyyə əməliyyatı icra etməsini, müayinə və müalicə aparmasını yüksək qiymətləndirib. O, dekadanın nəticələrinə yekun vuran Forumun iki ölkə arasında əlaqələri keyfiyyətcə yeni müstəviyə qaldıracağını söyləyib.

Forumda çıxış edən **Azərbaycanın səhiyyə naziri Teymur Musayev** bildirib: «2023-cü il ölkəmizdə adları Azərbaycan tarixinə qızıl hərflərlə yazılan iki böyük şəxsiyyətin — dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın elm və təbabət tarixində silinməz izlər qoyan görkəmli alim və həkim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın 100-illik yubileylərinin keçirilməsi ilə əlamətdardır».

Bu dekadanı «xalqlarımızın və dövlətlərimizin dostluğunun və qardaşlığının ifadəsi, ölkələrimizin daha da yaxınlaşmasına, qardaşlığımızın möhkəmlənməsinə xidmət edən addım» adlandıran nazir səhiyyə ongünlüyü müddətində gərgin zəhməti, yorulmaz qonaqpərvərliyi ilə qardaşlıq missiyasının təşkilinə verdiyi dəstəyə görə nazir Amrillo İnoyatova və Özbəkistan tibb ictimaiyyətinə təşəkkürünü ifadə edib.

Ulu Öndər Heydər Əliyevin digər sahələrlə yanaşı, ölkəmizdə səhiyyənin də inkişafında misilsiz rolundan danışan nazir qeyd edib ki, Azərbaycan — Özbəkistan münasibətlərində Ümummilli Lider Heydər Əliyevin bizə miras qoyduğu irs ümumi köklərimizə, ortaq tariximizə, mədəni yaxınlığımıza əsaslanan qardaşlıq və dostluqdur.

Azərbaycan və Özbəkistanın səhiyyə nazirlikləri arasında uğurlu əməkdaşlıq əlaqələri barədə danışan Teymur Musayev vurğulayıb: «Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Daşkənd Həkimləri Təkmilləşdirmə İnstitutu, İxtisaslaşmış Göz Mikrocərrahiyyəsi Mərkəzi ilə sıx əməkdaşlıq edir. Azərbaycan Tibb Universiteti ilə Daşkənd Tibb Akademiyası, İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu arasında tibb elmi sahəsində əməkdaşlığı ehtiva edən Anlaşma memorandumları imzalanıb. Əczaçılıq sahəsində əməkdaşlığımız inkişaf edir. Özbəkistan şirkətlərinin istehsal etdiyi 37 adda dərman vasitəsi Azərbaycanda dövlət qeydiyyatından keçib. Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi ilə Özbəkistan Respublikasının Əczaçılıq Sənayesinin İnkişafı Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb».

Qeyd edilib ki, 2023-cü ildə müxtəlif sektorlar üzrə əlaqələrin inkişafı dinamik xarakter alıb.

*(Ardı səhifə 9-da)*

# Bakıda Tibb Təhsili üzrə 8-ci Beynəlxalq Konfrans keçirildi




**Bakıda Tibb Təhsili üzrə 8-ci Beynəlxalq Konfrans (International Conference on Medical Education, ICME) keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanda ilk dəfə keçirilən bu tədbir Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti (ATU) və Pakistan İslam Respublikasının Riphah Beynəlxalq Universiteti tərəfindən təşkil olunub. Dünyanın 20-dən çox ölkəsindən 300-ə yaxın xarici qonağı bir araya gətirən konfransda tibb təhsili üzrə aparıcı mütəxəssislər iştirak ediblər.

Tədbirdən öncə konfransın fəxri qonaqları Fəxri və Şəhidlər xiyabanlarını ziyarət ediblər. Onlar əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub və gül dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər qoyulub. Daha sonra fəxri qonaqlar Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Konfransın təntənəli açılış mərasimi Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

Mərasimdə çıxış edən **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** qonaqları salamlayıb, tədbirin Azərbaycan Respublikasında təşkilinə verdiyi dəstəyə görə Ümumdünya Tibb Təhsili Federasiyasına minnətdarlığını bildirib, tibb təhsili üzrə beynəlxalq reytinqlərdə ön sıralarda yer tutan nüfuzlu təhsil müəssisələrinin elm insanlarını Bakıda bir arada görməkdən məmnunluq duyduğunu ifadə edib.

Nazir qeyd edib ki, 2023-cü il ölkəmizdə müstəqil Azərbaycanın qurucusu və memarı, dahi siyasi xadim Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin qeyd edilməsi ilə əlamətdardır. Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində respublikada həkim kadrların və təbabət alimlərinin hazırlığı üzrə görülmüş mühüm işlərdən danışan nazir bu istiqamətdə fəaliyyətin sonralar da uğurla davam etdirildiyini deyib: «Milli kadrların hazırlanmasına yönəlik strateji yanaşma möhtərəm cənab Prezident İlham Əliyevin prezidentliyi dövründə də uğurla davam etdirilir. 2007-2015-ci illərdə xaricdə təhsil üzrə dövlət proqramı çərçivəsində minlərlə Azərbaycanlı gənc, dövlətimizin hüdudlarından kənarda, ölkəmiz üçün prioritet sahələrdə təhsil almaq imkanı əldə edib. Onlardan təbabət üzrə təhsil alan bir çox mütəxəssislər bu gün Vətənə geri dönərək səhiyyənin inkişafına əməli töhfələr verirlər. Dövlət proqramının uğurlu nəticələri möhtərəm cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-2023-cü illər üçün xaricdə doktorantura səviyyəsində təhsil üzrə növbəti proqramın icrasının başlanılmasına əsas verib», — deyə Teymur Musayev bildirib.

Hazırda Azərbaycanda 56 ixtisas üzrə həkim hazırlığının həyata keçirildiyini qeyd edən nazir söyləyib ki, Azərbaycan Tibb Universiteti ölkəmizdə ali tibb təhsilində əsas yer tutan qocaman ali məktəbdir: «Bu Universitet səhiyyə müəssisələri üçün yüksəkixtisaslı həkim kadrları yetişdirir, bununla da əhalinin sağlamlığının qorunmasına, tibb elminin tərəqqisinə mühüm töhfələr verir. Azərbaycan Tibb Universitetinin tədris proqramları beynəlxalq akkreditasiyadan keçib. Son illərdə tibb təhsilinin dünya standartlarına uyğunlaşdırılması üçün bir neçə yeni ixtisas üzrə də qəbul həyata keçirilir.

Azərbaycan Respublikasında tibb təhsilinin təkmilləşdirilməsi və dünyanın nüfuzlu ali tibb məktəbləri ilə əlaqələrin genişləndirilməsi məqsədilə möhtərəm cənab Prezident İlham Əliyevin Sərəncamı ilə 2015-ci ildə Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı yaradılıb. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu texniki tərəqqinin müasir səviyyəsində təhsil standartlarına uyğun ixtisasartırma və kadrların yenidən hazırlanmasını təmin edən diplomdan sonrakı təhsil müəssisəsidir», — deyə nazir vurğulayıb.

Tibb təhsilində yeni yanaşmaların olmasının hər zaman labüd hesab edən Teymur Musayev son dövrlərdə bəşəriyyətin keçdiyi ciddi səhiyyə sınaqlarının, pandemiya şəraitinin bu işi daha da sürətləndirdiyini deyib: «Rəqəmsal alətlərin tətbiqi ilə onlayn təhsil platformalarının istifadəsi genişləndi. Bundan sonra da onlayn təhsilin genişlənəcəyini nəzərə alaraq, xüsusən də davamlı tibbi təhsil sahəsində qlobal vahid akkreditasiya meyarlarının müəyyənləşdirilməsinə ehtiyac vardır».

Sonda nazir tədbirin tibb təhsilinin gələcək istiqamətləri ilə bağlı aktual məsələlərə toxunacağına və məhsuldar olacağına inandığını bildirib, konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən **Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev** tibb təhsilinin ölkənin strateji məsələlərinin həllində və əhalinin sağlamlığının qorunmasında mühüm əhəmiyyətindən danışıb: «Bu günədək Azərbaycanda tibb təhsili sahəsində bir sıra nailiyyətlər əldə edilib və bu tendensiya davam etməlidir. Müşahidələr göstərir ki, ölkədə bütün zamanlarda yüksək nəticə göstərən məzunlar, ən istedadlı insanlar gələcəkdə ali təhsil almaq üçün məhz tibb sahəsini seçirlər ki, bu da yüksəkixtisaslı həkimlərin formalaşması ilə nəticələnir. Rəqəmsal və texnologiya baxımından əvvəlki illərin həkimləri ilə indikilər arasında ciddi fərq olacaq».

Ölkədə müasir səviyyədə tibb təhsilini tədris edən universitetlərin olduğunu bildirən nazir, eyni zamanda, tibb sahəsi üzrə proqramların təkmilləşdirilməsinə, təcrübə hissəsinin artırılmasına, tibb təhsili coğrafiyasının genişlənməsinə ehtiyac olduğunu deyib.

Emin Əmrullayev azad edilən ərazilərdə yaradılacaq Qarabağ Universitetinin konseptinin hazırlandığını bildirib: «Universitetin binası Ağdamda inşa ediləcək. İstərdik ki, orada da tibb sahəsi tədris olunsun. Bu sahədə fəaliyyət istiqamətində əməkdaşlığa hazırıq».

**ATU-nun rektoru professor Gəray Gəraybəyli** qeyd edib ki, tibb təhsili sahəsində belə bir mötəbər tədbirin – beynəlxalq konfransın Azərbaycanda keçirilməsi və məhz «Heydər Əliyev İli»nə təsadüf etməsi qürurverici hadisədir. «Konfrans innovativ ideyaların, qabaqcıl təcrübənin və tibb təhsili sahəsində ən son yeniliklərin mübadiləsi üçün platforma rolunu oynayacaq. Bu toplantı tibb təhsilinin davamlı təkmilləşdirilməsi və inkişafı mədəniyyətini təşviq etməklə, müəllimlər və tələbələr kimi rollarımız haqqında düşünmək üçün bir fürsətdir. Effektiv tədris metodologiyaları, texnologiya inteqrasiyası və inkişaf edən tibb təhsili mənzərəsi haqqında anlayışımızı genişləndirmək üçün konfrans çərçivəsində sessiyalar, seminarlar və müzakirələr keçiriləcək», — deyə rektor vurğulayıb.

**Dünya Tibb Təhsili Federasiyanın prezidenti professor Rikardo Leon-Borkes** Bakıda ilk dəfə keçirilən ICME konfransının tibb təhsili sahəsində dünya şöhrətli mütəxəssislər arasında qarşılıqlı əməkdaşlıq üçün dayanıqlı platforma təmin etmək məqsədilə yaradıldığını qeyd edib. Qonaq bu toplantının bilik və təcrübə mübadiləsi aparmaq, dünyanın müxtəlif ölkələrindən olan təmsilçilərlə əməkdaşlıq qurmaq üçün əla imkan yaratdığını bildirib.

Rikardo Leon-Borkes deyib ki, Azərbaycan tibb təhsilinin inkişaf etdirilməsi istiqamətində beynəlxalq standartlara uyğun hərəkət edir: «Azərbaycanın bu sahədəki səyləri və yatırım etdiyi sərmayələr vəziyyəti doğru istiqamətə aparır. Azərbaycanda tibb təhsili region üçün yaxşı formada hazırlanıb. Ümumilikdə, tibb təhsilinin inkişafı üçün Azərbaycana hər zaman dəstək olmağa hazırıq».

**Birləşmiş Ərəb Əmirliklərinin Ras Al-Khaimah Tibb və Sağlamlıq Elmləri Universitetinin prezidenti professor İsmayıl İbrahim Matalka** tədbirin tibb təhsili sahəsindəki yeniliklərlə bağlı tibb ictimaiyyətinin məlumatlandırılması və təcrübə mübadiləsinin aparılması baxımından önəmli olduğunu bildirib.

Konfransda həmçinin **Riphah Beynəlxalq Universitetinin kansleri Hasan Muhammed Xan, Birləşmiş Ərəb Əmirliklərinin Gulf Universitetinin kansleri professor Hossam Hamdini, Tibb Təhsili üzrə Beynəlxalq Konfransın prezidenti professor Azhar Raşid** çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, konfransda tibb təhsilinin bütün aspektlərini əhatə edən mövzuların müzakirəsi iştirakçılar üçün böyük imkanlar yaradır.

Sonra tanınmış tədqiqatçı Fuad Axundov «Bakının neft və qeyri-neft salnaməsi» mövzusunda təqdimat keçirib.

Açılış mərasimi Azərbaycan Respublikasının Əməkdar artisti Səbinə Ərəblinin «Qarabağ şikəstəsi»nin ifası ilə başa çatıb.

Konfrans öz işini müxtəlif mövzular üzrə simpoziumlarla davam etdirib. Simpoziumlarda tibb təhsilində simulyasiya əsaslı təlim, səriştələrin öyrədilməsi, koqnitiv bacarıqların aşılanması, kompüter texnologiyaları və süni intellektin tətbiqi kimi aktual məsələlər müzakirə edilib. Konfransda tibb təhsili sahəsində dünyanın tanınmış 30-dan çox ekspertinin ən aktual mövzularda məruzələri dinlənilib, təcrübə mübadiləsi aparılıb, müzakirələr keçirilib. «Ekspertlər nə deyir?» sessiyalarında tibb təhsili və təliminə dair ən qabaqcıl və yeni yanaşmalar və təcrübələr təqdim olunub.

Qeyd edək ki, indiyədək ICME konfransı iki ildən bir olmaqla Əbu-Dabi, Mavriki, İstanbul, Ottava və İslamabadda keçirilib. Bundan öncəki konfrans 2021-ci ildə İndoneziya İslam Universiteti ilə birgə virtual formatda təşkil olunub.

# Azərbaycan səhiyyə naziri İstanbulda IX Türk Tibb Dünyası Qurultayında iştirak edib

## *Teymur Musayev Əziz Sancar mükafatı ilə təltif olunub*

**İstanbulda Türkiyə Respublikası Prezidentinin himayəçiliyi ilə «Türkiyə Yüzilliyi» çərçivəsində IX Türk Tibb Dünyası Qurultayı keçirilib. Toplantıda türk dövlətləri ilə yanaşı, müxtəlif qitələrdən olan rəsmi nümayəndə heyətləri və səhiyyə sahəsində tanınmış elm adamları iştirak ediblər.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, tədbirin başlıca məqsədi müasir dövrdə səhiyyə sahəsində baş verən yeniliklər, mütərəqqi yanaşmalar, innovativ texnoloji həllərin, xüsusilə də süni intellektin tətbiqi ətrafında fikir və təcrübə mübadiləsinin aparılmasıdır.

Qurultayın açılış mərasimində **Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın** tədbir iştirakçılarına videomüraciəti təqdim olunub. Türkiyə Prezidenti Qurultay iştirakçılarını salamlayıb, builki tədbirin türk dövlətlərinin səhiyyə sisteminin müasir əsaslarla inkişafında geniş imkanlar yaradacağına əmin olduğunu bildirib və qurultayın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən **Türkiyənin Sağlamlıq İnstitutları Başkanlığının sədri professor Erhan Akdoğan** ilk olaraq Türkiyə Respublikasının yaranmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. O qeyd edib ki, Türk Tibb Dünyası Qurultayı tibb elminin inkişafı, nailiyyətlər, ixtiralar, yeni müalicə üsullarının tətbiqi sahəsində fikir mübadiləsinin aparılması, nəzəri və praktiki təcrübələrin bölüşülməsi üçün geniş imkanlar yaradır.

**Türkiyənin səhiyyə naziri Fahrettin Koca** isə öz çıxışında IX Türk Tibb Dünyası Qurultayının ölkə başçısının himayəsi altında, özü də önəmli bir tarixdə — Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi çərçivəsində keçirildiyini vurğulayıb. Nazir qurultayın builki mövzusunun «Səhiyyədə süni intellekt» olduğunu bildirib. Fahrettin Koca qeyd edib ki, tibdə əldə edilən son nailiyyətlər, yeni texnoloji həllər, rəqəmsallaşma, innovasiyalar sahəsində aparılacaq müzakirə və tərcübə mübadiləri gələcək fəaliyyət prinsiplərinə, eyni zamanda, əməkdaşlıq prioritetlərinə önəmli töhfə verəcək. Türkiyənin səhiyyə naziri IX Türk Tibb Dünyası Qurultayının səhiyyə sahəsindəki çoxşaxəli istiqamətlərdə əlaqələrin daha da inkişafı, bilik və təcrübələrin qarşılıqlı mübadiləsi üçün əvəzsiz fürsət yaradacağını vurğulayıb.

Qurultayda çıxış edən **Azərbaycanın səhiyyə naziri Teymur Musayev** Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Səhiyyə Nazirliyi adından bütün türk qardaşlarımızı təbrik edib: «Bu il «bir millət, iki dövlət» anlayışı ilə acımızın, sevincimizin bir olduğu Türkiyə Cümhuriyyətinin 100-cü ildönümüdür. Əminəm ki, Türkiyə — Azərbaycan qardaşlığı daha da güclənərək, neçə yüzilliklərə bərabər çatacaq. 2023-cü il həm də Azərbaycan Respublikası üçün əlamətdar ildir. İki qardaş ölkə arasındakı qardaşlıq bağlarının möhkəmlənməsində tarixi və misilsiz xidmətləri olan dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyidir».

IX Türk Tibb Dünyası Qurultayının əhəmiyyətindən danışan Teymur Musayev bildirib ki, müxtəlif ölkələrin səhiyyə nazirlərinin və elm adamlarının iştirakı ilə yaradılan bu platforma nəinki Türk Dövlətləri Təşkilatında təmsil olunan ölkələrin tibb mütəxəssisləri ilə, eyni zamanda, digər ölkələrdə fəaliyyət göstərən türksoylu peşəkarlarla əlaqələr qurmaq, onların təcrübələri ilə tanış olmaq və gələcək əməkdaşlıq imkanlarını müəyyən etmək üçün möhkəm əsaslar yaradıb: «Bu strateji və gələcəyə yönəlmiş addımların nəticəsidir ki, bugünkü tədbirdə müxtəlif qitələrdən olan nümayəndə heyətləri iştirak edir və qurultay biliklərin mübadiləsi üzrə beynəlxalq platformaya çevrilib».

Nazir bir neçə gün öncə Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin 20 illiyinin ölkəmizdə böyük qürur və sevinc hissi ilə qeyd edildiyini bildirib. «2023-cü il oktyabrın 15-də üçrəngli bayrağımız Prezidentin siyasi iradəsi sayəsində bütün ölkə ərazisində dalğalanmağa başladı və ölkəmizin suverenliyi tam bərpa olundu. 30 illik işğal dövründən sonra azad olunmuş ərazilərin sürətli şəkildə ölkənin bütün sektorlarına inteqrasiyası başlanıb. Bu prosesdə müasir informasiya texnologiyalarının tətbiqi mühüm rol oynayır», — deyə nazir vurğulayıb.

Teymur Musayev müasir səhiyyə sistemlərinin dinamik inkişafını təmin edən əsas amilin səhiyyənin rəqəmsallaşması olduğunu, texnoloji inkişaf və tibbi biliklərin kəşfi nəticəsində indi qlobal səhiyyə sektorunun transformasiya dövrünü yaşadığını da qeyd edib. «Hazırda səhiyyədə müxtəlif proseslərdə effektivliyi artırmaq üçün süni intellektdən istifadə olunur. Qurultayın süni intellekt sahəsində müxtəlif mövzulara toxunacağına və Türkiyə Respublikasının bu sahədəki təcrübəsinin iştirakçılarda böyük maraq yaradacağına inanıram», — deyə nazir fikrini tamamlayıb.

Qurultay panel sessiyalarda müxtəlif mövzular ətrafında müzakirələr və təqdimatlarla davam edib.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevə «Əziz Sancar elm, xidmət və təşviq» mükafatı təqdim olunub.




IX Türk Tibb Dünyası Qurultayı çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayev bir sıra həmkarları ilə ikitərəfli görüşlər keçirib.

Türkiyənin səhiyyə naziri Fahrettin Koca ilə görüşdə tərəflər ölkələrimiz arasında qardaşlıq münasibətləri, səhiyyə sahəsində əməkdaşlıq, həmçinin birgə layihələr ətrafında səmərəli fikir mübadiləsi aparıblar. Qeyd edilib ki, qurultayın builki mövzusu olan səhiyyə sahəsində süni intellektin tətbiqi ilə bağlı fikir və təcrübə mübadiləsinin aparılması müasir texnoloji inkişaf və tibbi biliklərin kəşfinə, rəqəmsal həllərin tətbiqinə geniş imkanlar yaradacaq.

Bundan başqa, Azərbaycanın səhiyyə naziri Teymur Musayev qurultay çərçivəsində bəzi digər həmkarları ilə də ikitərəfli görüşlər keçirib. O cümlədən Qırğızıstanın səhiyyə naziri Alımkadır Beyşenalıyev, Gürcüstanın səhiyyə naziri Zurab Azaraşvili, Şimali Makedoniyanın səhiyyə naziri Fatmir Meciti, Kuba Respublikasının ictimai səhiyyə nazirinin müavini Tania Marqarita Kruz Hernandez, Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə naziri Hakan Dinçyürek ilə konstruktiv və qarşılıqlı anlaşma mühitində keçən söhbətlər zamanı səhiyyə, tibb təhsilində ölkələr arasında əməkdaşlığının mövcud vəziyyəti və potensial inkişaf imkanları, həmçinin əczaçılıq sahəsində ikitərəfli əlaqələrin perspektivləri müzakirə olunub. Keçirilən görüşlərdə tərəflər arasında Türk dünyası ölkələri üçün səhiyyənin rəqəmsallaşdırılmasının əhəmiyyəti, dünya səhiyyəsində yeni çağırışların tətbiqi və müxtəlif platformalara ehtiyac olduğu vurğulanıb.

Həmçinin ölkələrdə səhiyyədə həyata keçirilən uğurlu islahatların nəticələri, elmi araşdırma mərkəzlərində aparılan tədqiqatlar, stomatologiya, daxili xəstəliklər, transplantasiya və tibbi turizmin inkişafı ilə bağlı əməkdaşlıq barədə danışılıb.

Eləcə də qeyd olunub ki, IX Türk Tibb Dünyası Qurultayı türkdilli dövlətlərdə tibb elminin müasir əsaslarla inkişafı, səhiyyədə mütərəqqi texnoloji həllərin, müasir müalicə üsullarının tətbiqi sahəsində fikir və təcrübə mübadiləsinin aparılması üçün geniş imkanlar yaradır. Eyni zamanda, tədbirin səhiyyədə süni intellektin tətbiqi imkanlarının elmi əsaslarla araşdırılması, yeni tibb xidmətinin fəlsəfəsinin bərqərar olması, müasir standartların formalaşmasında əvəzsiz töhfələr verəcəyi bildirilib.

# Özbəkistan – Azərbaycan səhiyyə dekadasında iştirak edən həkimlərlə görüş keçirilib

**Azərbaycan Səhiyyə Nazirliyində Özbəkistan – Azərbaycan səhiyyə dekadası çərçivəsində özbəkistanlı həmkarları ilə birlikdə tibbi müayinələr və cərrahi əməliyyatlar keçirmək üçün Özbəkistana ezam olunan həkim mütəxəssislərlə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, görüşdə ilk növbədə Azərbaycanın və Özbəkistanın səhiyyə sahəsinin inkişafına xidmət edəcək bu tədbirin keçirilməsində göstərilən yüksək dəstəyə görə Heydər Əliyev Fonduna və ölkənin birinci vitse-prezidentinə minnətdarlıq ifadə edilib.

Uğurlu cərrahiyyə əməliyyatları və tibbi müayinələr apardıqlarına görə həkimlərə təşəkkürünü bildirən nazir Teymur Musayev deyib: «Hər iki ölkənin prezidentlərinin rəhbərliyi altında Azərbaycanla Özbəkistan arasında uğurlu əməkdaşlıq üçün güclü fundamental əsaslar yaradılıb, bu əlaqələrin daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb».

Tərəfdaşlıq əlaqələrinin digər sahələrlə yanaşı, səhiyyə sektorunda da getdikcə gücləndirilməsini qeyd edən nazir bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Özbəkistan – Azərbaycan səhiyyə dekadasının keçirilməsi bu əlaqələrin bariz nümunəsidir. Yüksək səviyyədə təşkil olunan dekada və forum ölkələr arasında səhiyyə sahəsində münasibətləri yeni müstəviyə keçirməklə, bu istiqamətdə uğurlu inkişaf perspektivlərini və gələcəkdə qarşılıqlı əməkdaşlıq imkanlarını müəyyənləşdirmək üçün möhkəm əsaslar yaradıb.

«Dekada çərçivəsində birgə aparılan uğurlu cərrahi əməliyyatlar, müalicə və müayinə tədbirləri hər iki ölkənin həkim mütəxəssislərinin praktiki tibbi təcrübə mübadiləsi, peşəkarlıq, bilik və bacarıqlarının artırılması üçün faydalıdır, bununla yanaşı, əhalinin yüksək səviyyədə sağlamlığının qorunmasında mühüm addımdır», –deyə nazir vurğulayıb.

Həyata keçirilən tədbirlər barədə məlumat verən həkimlər bildiriblər ki, Özbəkistan – Azərbaycan səhiyyə dekadası çərçivəsində Azərbaycandan olan 14 həkim tərəfindən özbəkistanlı həmkarları ilə birgə yerli əhaliyə müasir tibbi avadanlıqlar vasitəsilə, yüksək peşəkarlıqla 100-dən artıq müxtəlif cərrahiyyə əməliyyatları icra edilib, müayinə və müalicələr həyata keçirilib.

Paytaxt Daşkəndlə yanaşı, Özbəkistanın Səmərqənd, Xarəzm, Buxara, Nəvai və digər bölgələrində neonatal minimal invaziv cərrahiyyə, uşaq cərrahiyyəsi, transplantologiya, minimal invaziv laparoskopik və histeroskopik cərrahiyyə, travmatologiya və ortopediya, onkologiya, oftalmologiya və ağır rekonstruktiv əməliyyatların icra edildiyi bildirilib.

Sonda səhiyyə dekadası çərçivəsində tibbi əməliyyatların keçirilməsi üçün Özbəkistana ezam olunan həkim mütəxəssislər Səhiyyə Nazirliyinin diplomları ilə təltif ediliblər.

# Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin II Beynəlxalq Elmi-Praktik Konqresi keçirilib

**Heydər Əliyev Mərkəzində Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin II Beynəlxalq Elmi-Praktik Konqresinin açılış mərasimi keçirilib. Konqres Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin sədri professor Çingiz Rəhimov bildirib ki, Ulu Öndərin 100 illik yubileyinə həsr olunan konqres səhiyyə sahəsində keçirilən tədbirlər arasında ən irimiqyaslılardandır. Qeyd olunub ki, 30-dan çox ölkədən tanınmış məruzəçilərin qatıldığı tədbirin elmi proqramı ağız və üz-çənə cərrahiyyəsi ixtisası ilə yanaşı, qonşu peşə sahələrini də (stomatologiya, üzün plastik və rekonstruktiv cərrahiyyəsi, baş-boyun onkologiyası, otorinolarinqologiya və kosmetologiya) əhatə edir. Tədbirin məqsədinin bu sahədə tibbi xidmətin daha yüksək səviyyələrə qaldırılması üçün ən yeni texnologiyaların tətbiqinin müzakirəsi və təcrübə mübadiləsinin aparılması olduğunu vurğulayan Ç.Rəhimov qeyd edib ki, konqres «Əməkdaşlıq sərhədlərimizi genişləndirək» şüarı altında keçirilir.

Konqresdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, Azərbaycanda təbabətin aktual problemlərinə həsr olunan konqreslərin, konfransların, böyükmiqyaslı tədbirlərin keçirilməsi ənənəyə çevrilib. Həmin tədbirlərin təşkili dövlət səviyyəsində dəstəklənir.

Son iyirmi ildə ölkəmizdə 750-dən çox tibb müəssisəsinin inşa olunaraq, ən yüksək texnologiyalarla təchiz edilərək əhalinin istifadəsinə verildiyini diqqətə çatdıran komitə sədri əlavə edib: «Hazırda Azərbaycan səhiyyəsinin qarşısında duran ən mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə viran edilmiş səhiyyə müəssisələrinin bərpasıdır. Bu istiqamətdə artıq uğurlu addımlar atılır. Qədim Şuşada çoxprofilli xəstəxana kompleksinin inşası bitmək üzrədir. Əminəm ki, xəstəxana yaxın vaxtlarda istifadəyə veriləcək».

Səhiyyə nazirinin müavini Nadir Zeynalov Ulu Öndər Heydər Əliyevin səhiyyənin inkişafı üçün gördüyü işlərdən danışıb, onun əhalinin sağlamlığının mühafizəsinə, millətin genofondunun qorunmasına, gələcəyinin təmin edilməsinə diqqət və qayğısının sonsuz olduğunu qeyd edib.

Bildirilib ki, bu gün digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də Ulu Öndərin sosialyönümlü siyasət strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə səhiyyə sistemində aparılan əsaslı islahatlar, göstərilən diqqət və dəstək sayəsində bu sahədə bir çox irəliləyişlərə nail olunub.

Konqresdə çıxış edən digər qonaqlar tədbirin təcrübə və fikir mübadiləsi aparmaq üçün çox uğurlu platforma olduğunu qeyd edib, onun işinə uğurlar arzulayıblar.

Açılış mərasimi bədii hissə ilə yekunlaşıb. Sonra konqres öz işini elmi məruzələr və müzakirələrlə davam etdirib.

# Özbəkistan – Azərbaycan səhiyyə dekadası

*(Əvvəli səhifə 6-da)*

Belə ki, bu ilin fevral ayında Daşkənddə birinci Azərbaycan – Özbəkistan Regionlararası Forumu keçirilib, Şuşa – Xivə, Gəncə – Səmərqənd, Lənkəran – Buxara, Şəki – Kokand şəhərləri arasında qardaşlaşma haqqında sənədlər, Bakı və Daşkənd şəhərləri arasında əməkdaşlığa dair yol xəritəsi, Azərbaycan – Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında Saziş qüvvəyə minib. Heydər Əliyev Fondunun dəstəyi ilə Ümummilli Liderin 100 illik yubileyi çərçivəsində Azərbaycanın Astara rayonunda keçirilən beynəlxalq konqresdə Özbəkistan nümayəndə heyəti iştirak edib.

«Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin prioritetlərindən biri də məhz səhiyyə sahəsidir. Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü və iştirakı ilə Fond tərəfindən səhiyyənin inkişafı və tərəqqisi istiqamətində bir çox uğurlu layihələr həyata keçirilib», – deyə Teymur Musayev bildirib.



«Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2023-cü il Azərbaycan üçün Konstitusiya ilə müəyyən olunmuş ərazi bütövlüyü ilə bağlı hüquqların bərqərar olduğu il kimi tarixə yazılıb. Azərbaycan silahlı qüvvələrinin həm 44-günlük Vətən müharibəsi, həm də bu ilin sentyabr ayında keçirilən antiterror tədbirləri zamanı qazandığı möhtəşəm zəfər hər bir vətəndaşı qürurlandırıb. İşğaldan azad edilən əzəli Azərbaycan torpaqlarında qardaş ölkələr bərpa-quruculuq işlərində fəal iştirak edirlər», – deyə nazir vurğulayıb.

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında, əhalinin sağlamlığının qorunmasına yönəldilmiş genişmiqyaslı islahatların həyata keçirildiyini bildirən nazir qeyd edib: «Bu yanaşmanın davamıdır ki, Ulu Öndərin 100-illik yubileyi çərçivəsində Azərbaycanın peşəkar həkimləri Özbəkistanda qardaşlıq missiyasını uğurla icra ediblər. Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan bu tədbir xalqlarımız arasında olan qardaşlıq bağlarını daha da möhkəmləndirib. Xoşməramlı missiyanın davamı olaraq qardaş Özbəkistanın 50 həkim və 50 orta tibb işçisinin ixtisasartırma təlimlərində iştirak və təcrübə mübadiləsi aparmaq məqsədilə Azərbaycana səfərini təklif edirəm».

Forumda çıxış edən, **Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev** qardaş ölkələr arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Onun sözlərinə görə, hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri bu dostluğun bariz nümunəsidir.

Tədbirdə **Heydər Əliyev Fondunun nümayəndəsi Şamil Əzizov** Fondun genişmiqyaslı fəaliyyəti, o cümlədən səhiyyənin inkişafı sahəsində həyata keçirdiyi uğurlu layihələr barədə məlumat verib.

Forumda Azərbaycan həkimlərinin adından çıxış edən **Azərbaycan Tibb Universitetinin Uşaq cərrahiyyəsi kafedrasının müdiri professor Ramiz Poluxov** elmi və klinik təcrübələrdə yeni yanaşmalar, səhiyyə dekadası çərçivəsində birgə icra edilən cərrahiyyə əməliyyatları, aparılan müayinələr və praktiki tibbi təlimlərin nəticələri barədə məlumat verib.

Həmçinin tədbirin digər iştirakçıları tərəfindən səhiyyə sektorunda transformasiyalar, klinik praktikada yeni diaqnostika və müalicə üsulları, ikitərəfli əməkdaşlığın perspektivləri mövzularında çıxışlar edilib.

Forumun sonunda Özbəkistan Respublikasında səhiyyənin inkişafında mühüm xidmətlər göstərən, Özbəkistan – Azərbaycan səhiyyə dekadası çərçivəsində cərrahiyə əməliyyatları, tibbi müayinə və müalicələr aparan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin həkim mütəxəssislərinin və tədbir təşkilatçılarının mükafatlandırılması mərasimi keçirilib.

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu**

Patanatomiya və məhkəmə tibbi ekspertiza kafedrasının müdiri (t.ü.e.d., professor)
Parodontologiya kafedrasının müdiri (t.ü.e.d., professor)
Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasının müdiri (t.ü.e.d., t.ü.f.d., dosent)
Kardiologiya kafedrasının professoru (t.ü.e.d., professor)
Pediatriya kafedrasının professoru (t.ü.e.d., professor)
Parodontologiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti (t.ü.f.d., dosent)
Ümumi və plastik cərrahiyyə kafedrasının dosenti - 0,5 (t.ü.f.d., dosent)
Hematologiya kafedrasının assistenti (t.ü.f.d.)
Ftiziatriya kafedrasının professoru - 0,5 (t.ü.e.d., t.ü.f.d.)
Psixiatriya və narkologiya kafedrasının dosenti (t.ü.e.d., t.ü.f.d.)
Oftalmologiya kafedrasının assistenti - 0,5 (t.ü.f.d.)
Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasının assistenti
Şüa terapiyası kursu ilə şüa diaqnostikası kafedrasının assistenti - 0,5 (t.ü.f.d.)
Parodontologiya kafedrasının assistenti (t.ü.f.d.)
Nevrologiya və klinik neyrofiziologiya kafedrasının assistenti - 0,5
Dermatovenerologiya kafedrasının assistenti - 0,5 (t.ü.f.d.)
Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti - 0,5
Ümumi və plastik cərrahiyyə kafedrasının müdiri (t.ü.e.d., professor)
Terapiya kafedrasının müdiri (t.ü.e.d., professor)
Mamalıq və ginekologiya kafedrasının müdiri (t.ü.e.d., professor)
Yoluxucu xəstəliklər kafedrasının müdiri (t.ü.e.d., t.ü.f.d., dosent)
Ftiziatriya kafedrasının müdiri (t.ü.e.d., professor)
Hematologiya kafedrasının müdiri (t.ü.e.d., t.ü.f.d., dosent)
Terapiya kafedrasının professoru (t.ü.e.d., professor)
Urologiya kafedrasının professoru (t.ü.e.d., professor)
Urologiya kafedrasının professoru – 0,5 (t.ü.e.d., professor)
Onkologiya kafedrasının professoru (t.ü.e.d., professor)
Terapiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının dosenti – 0,5 (t.ü.f.d., dosent)
Mamalıq və ginekologiya kafedrasının dosenti (t.ü.f.d., dosent)
Terapiya kafedrasının assistenti (t.ü.f.d.)
Travmatologiya və ortopediya kafedrasının assistenti (t.ü.f.d.)
Ftiziatriya kafedrasının assistenti (t.ü.f.d.)
Mikrobiologiya və epidemiologiya kafedrasının assistenti (t.ü.f.d.)
Hematologiya kafedrasının assistenti
Gigiyena kafedrasının baş müəllimi (t.ü.f.d.)
Kliniki laborator diaqnostika kafedrasının assistenti
Mərkəzi Elmi Tədqiqat laboratoriyasının baş elmi işçisi (b.ü.f.d.)
Mərkəzi Elmi Tədqiqat laboratoriyasının kiçik elmi işçisi
Mərkəzi Elmi Tədqiqat laboratoriyasının baş elmi işçisi

*Ünvan: Tbilisi pr., 3165-ci məh.*
*Telefon: 431-01-82*

**Masallı Rayon Dezinfeksiya Stansiyası**

Təlimatçı-dezinfektor- 1.0

*Ünvan: Həzi Aslanov küç., 17*
*Telefon: (02521) 5-53-71*

**ATU-nun Onkoloji Klinikası**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Ə.Qasımzadə küç., 14*
*Telefon: 597-43-23*

**Zərdab Rayon GEM**

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: R.Kərimov küç., 7*
*Telefon: (02029) 6-62-82*

**Lənkəran Şəhər Psixiatriya Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Nəsimi küç., 92*
*Telefon: (02525) 4-44-79*

**«Respublika Narkoloji Mərkəzi» PHŞ**

Tibb bacısı (qardaşı) - 6.0

*Ünvan: Maştağa qəs., Axund Şeyx Hüseyn küç., 71*
*Telefon: 558-75-16*

**«Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi» PHŞ**

Laborant - 1.0

*Ünvan: Mir-Qasımov küç., 1*
*Telefon: 595-64-07*

**1 nömrəli Körpələr Evi**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Bakıxanov küç., 37*
*Telefon: 440-49-28*

**«Respublika Psixiatriya Xəstəxanası» PHŞ**

Tibb bacısı (qardaşı) - 10.0
Psixoloq - 1.0
Sosioloq - 2.0

*Ünvan: Maştağa qəs., Axund Şeyx Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

**7 nömrəli Uşaq Nevroloji Sanatoriyası**

Masaj üzrə tibb bacısı (qardaşı) - 1.0
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0
Tibbi-statistik - 1.0
Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Ramanı qəs., Zərdabi küç., 5*
*Telefon: 451-30-05*

**Balakən Rayon GEM**

Həkim-epidemioloqun köməkçisi - 1.0
Entomoloqun köməkçisi - 1.0

*Ünvan: R.Səmədov küç., 27*
*Telefon: (02429) 5-12-93*

**Sumqayıt Şəhər GEM**

Sanitar-feldşer - 1.0

*Ünvan: Natavan küç., 30*
*Telefon: (01865) 5-94-05*

**Qəbələ Rayon GEM**

Sanitar-feldşer - 2.0
Feldşer-laborant - 1.0

*Ünvan: 28 May küç., 93*
*Telefon: (02420) 5-12-57*

**«Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu» PHŞ**

*Travmatologiya şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped, tibb üzrə fəlsəfə doktoru - 1.0
Kiçik elmi işçi, travmatoloq-ortoped - 3.0

*Əl cərrahiyyə və yaralar şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped, tibb üzrə fəlsəfə doktoru - 1.0
Kiçik elmi işçi, travmatoloq-ortoped - 2.0

*Ortopediya şöbəsi:*
Kiçik elmi işçi, travmatoloq-ortoped - 3.0

*Uşaq travmatologiya və ortopediya şöbəsi:*
Böyük elmi işçi, travmatoloq-ortoped, tibb üzrə fəlsəfə doktoru - 1.0
Kiçik elmi işçi, travmatoloq-ortoped - 1.0

*Metodiki-təşkilat şöbəsi:*
Kiçik elmi işçi, travmatoloq-ortoped - 1.0

*Artroplastika və artroskopiya şöbəsi:*
Elmi rəhbər, travmatoloq-ortoped, tibb üzrə fəlsəfə doktoru - 1.0
Böyük elmi işçi, travmatoloq-ortoped, tibb üzrə fəlsəfə doktoru - 1.0
Kiçik elmi işçi, travmatoloq-ortoped - 3.0

*Elmi-tibbi informasiya bölməsi:*
Şöbə müdiri - 1.0
Kiçik elmi işçi - 1.0

*Ünvan: A.Səhhət küç.,32*
*Telefon: 440-33-86*

## Ədliyyə Nazirliyinin tibb xidmətinə qulluğa qəbulla bağlı müsabiqə davam edir

Ədliyyə Nazirliyi tibb xidmətinin kadr korpusunun müsabiqə və şəffaflıq əsasında hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi tədbirləri davam etdirilir.

Bununla əlaqədar «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən Azərbaycan Respublikasının vətəndaşları açıq müsabiqədə iştrak etmək üçün dəvət olunur.

Bildirilir ki, vakant ştat vahidləri tibb xidmətinin penitensiar müəssisələrindəki qurumlarında olmaqla aşağıdakı ixtisaslar üzrədir:

**Ali tibb təhsili üzrə**

Həkim-terapevt
Həkim-cərrah
Şüa diaqnostikası üzrə həkim
Həkim-travmatoloq
Həkim-nevropatoloq
Həkim-anastezioloq-reanimatoloq
Həkim-infeksionist
Həkim-endoskopist
Həkim-ftiziatr
Həkim-psixiatr

**Orta tibb ixtisas təhsili üzrə**

Feldşer
Tibb bacısı (qardaşı)

***Müsabiqədə iştrak etmək üçün sənədlər Ədliyyə Nazirliyi Tibb baş idarəsinin inzibati binasında (Bakı Şəhəri, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi, 16 və 18) qəbul olunur. Həmçinin müraciətlər elektron poçt ünvanı (medical.department@justice.gov.az) vastəsilə də edilə bilər.***

***Əlavə məlumatları (012) 493-30-91 və (012) 493-06-50 nömrəli telefonlara zəng etməklə əldə etmək mümkündür.***

## Abunə kampaniyası davam edir!

**2024-cü ilin I yarısı üçün abunə kampaniyası dekabr ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204 h/h38090019449323220204 Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı Kod: 805722 AZ03NABZ 01350100000000002944 BANK (VÖEN)9900001881 S W İ F T İBAZAZ 2 X**

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 9300

# Respublika Əczaçılarının 4-cü Konfransı keçirilib

**Beynəlxalq Əczaçılar Günü ərəfəsində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Respublika Əczaçılarının 4-cü Konfransı keçirilib.**

«Əczaçılıq Klubu» İctimai Birliyinin (İB) təşkilatçılığı ilə baş tutan tədbirdə Milli Məclis, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA), Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Tarif Şurası, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA), Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi, əczaçılıq şirkətlərinin nümayəndələrinin iştirakı ilə əczaçılıq sektorunun mövcud vəziyyəti, inkişaf perspektivləri müzakirə edilib.

Konfrans Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Toplantıda çıxış edən səhiyyə nazirinin müavini Rasim İsmayılov səhiyyə sahəsinin daim dövlət başçısının diqqət mərkəzində olduğunu qeyd edib: «Ümumilikdə, son 20 ildə səhiyyə sahəsində bir sıra uğurlu nailiyyətlər əldə olunub. Əhalinin sağlamlığı ilə bağlı müsbət dinamika buna bariz sübutdur».

Nazir müavini əczaçılıq sahəsində görülən işlər, nəzərdə tutulan tədbirlər, səhiyyənin rəqəmsallaşdırılması, dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınması, elektron resept sisteminin tətbiqi barədə məlumat verib, bildirib ki, Azərbaycanda dərmanların vahid dövlət reyestri Səhiyyə Nazirliyi tərəfindən tərtib edilir və aparılır. Ölkədə əczaçılıq sahəsində elektron resept sisteminin tətbiqinə toxunan nazir müavini qeyd edib ki, bu kimi innovasiyalar dərman sahəsində müsbət dəyişikliklərə şərait yaradır.

Tədbirdə həmçinin KOBİA, «Əczaçılar Klubu» İB, AQTA, Azərbaycan Tibb Universitetinin, əczaçılıq üzrə yerli distribüter şirkətlərinin nümayəndələri və iş adamları əczaçılıq sahəsində fəaliyyət göstərən müəssisələrin rəqabətədavamlılığının artırılması, onların göstərdiyi xidmətlərin daha keyfiyyətli və müasir standartlara uyğunlaşdırılması, konfransın məqsədi və ondan gözləntilər barədə fikirlərini bölüşüblər.

Bundan sonra Konfrans elektron resept, qiymət siyasəti, yerli dərman istehsalı biznesinin inkişafı istiqamətlərində panel iclaslarla işinə davam edib.

«Elektron resept» panel iclasında çıxış edən Səhiyyə Nazirliyi «Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi» Publik Hüquqi Şəxsin baş direktoru Cəbrayıl Əsədzadə qeyd edib ki, Səhiyyə Nazirliyi tərəfindən hazırlanan və tətbiq edilən vahid elektron resept sistemi Azərbaycanda mövcud olan dövlət və özəl tibb müəssisələrində vətəndaşlara yazılan reseptlərin elektron şəkildə qeydiyyatı və idarə olunması funksiyasını daşıyır: «Sistemin əsas əhəmiyyəti vətəndaşların elektron tibbi məlumatlarının əlçatanlığı və qorunması, tibb mütəxəssislərinin müayinə və müalicə zamanı xəstəlik tarixçəsindən istifadə etməklə daha keyfiyyətli xidmət göstərməsi və ölkədə olan dərman dövriyyəsinə nəzarətin gücləndirilməsi kimi əsas dəyərləri özündə birləşdirir». Bildirilib ki, sistemin bir çox üstünlükləri mövcuddur. Səhiyyə Nazirliyinin tətbiq etdiyi vahid elektron resept sistemi bütün iştirakçılara faydalı olmaqla yanaşı, dövlətin dərman vasitələrinə nəzarəti sahəsində əhəmiyyətli sistemdir. Səhiyyənin keyfiyyətinin yaxşılaşdırılması və səhiyyədə rəqəmsallaşdırmanın aparılması üçün elektron resept sisteminin fəaliyyəti əsas tələblərdən biridir.

Konfrans müzakirələr və maraqlı təkliflərlə davam edib.

# «Tibbi profilaktikanın aktual problemləri» Beynəlxalq elmi konfrans keçirildi

**Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş «Tibbi profilaktikanın aktual problemləri» mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda ölkəmizdəki elmi-tədqiqat institutları və təhsil müəssisələri ilə yanaşı, Türkiyə, Özbəkistan, ABŞ, Belarus və Xorvatiya kimi bir sıra xarici ölkələrdən olan alimlər, görkəmli elm nümayəndələri də iştirak ediblər.

Konfransda səhiyyə nazirinin müavini Nadir Zeynalov tibb sahəsində profilaktikanın vacibliyi haqqında danışıb: «COVID-19 pandemiyası ilə bağlı olaraq infeksion xəstəliklərin profilaktikası məsələsi aktuallaşıb. Səhiyyə Nazirliyi infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikasına daha çox diqqət ayırır».

Özbəkistan Respublikasının ixtisaslaşdırılmış Elmi-praktik Epidemiologiya, Mikrobiologiya, Yoluxucu və Parazitar Xəstəliklər Tibbi Mərkəzinin direktoru professor Batir Tadjiyev, mərkəzin elmi işlər üzrə direktor müavini, tibb elmləri doktoru Nigora Tadjiyiva və 2 doktorantı konfransda elmi məruzə ilə çıxış ediblər. Türkiyədən konfransda iştirak edən elm nümayəndələri inaktiv vaksinlər, müasir biotexnologiyanın təbabətdə istifadəsi, nanotexnologiya, neyro-mühəndislik və xərçəng araşdırmaları kimi bir çox müasir mövzulardan danışıblar. Daha sonra V.Y.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun dosenti Lalə Rüstəmova, dosent Sevinc Süleymanova və digər elmi işçilər konfransda aktual və vacib mövzularda müzakirələr aparıblar.




FARLUXETINE®
Fluoxetine 20 mg
Müxtəlif mənşəli depressiyalar
Obsessiv – kompulsiv pozuntular
Predmenstrual disforiya
Bulimik nevroz
FARLUXETINE 20 mg
Qəbul qaydası:
1 kapsul gündə 1 dəfə səhər
Çıxış yolu həmişə var
HB Co LTD
Biofarma


ESPA10/20
ANTİDEPRESSANT
ESCİTALOPRAM
Həyat yaşadıqca gözəldir...!
ESCITALOPRAM
ESPA10
ESCITALOPRAM
ESPA20
Depressiyalar
Nevrozlar
Panik atak
Aqorafobiya
Erkən eyakulyasiya
HB Co LTD
Biofarma


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribyutoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az